

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 26 (23.188)

*6 fevral 2019-cu il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Kerini qəbul edib.

Formula 1 Qrupunun baş icraçı direktoru Çeyz Keri bildirib ki, Formula 1 çərçivəsində ötən il keçirilən 21 yarışın təhlili nəticəsində Bakıda keçirilən bu yarış ən yaxşı yarış hesab edilib.

Dövlətimizin başçısı Bakıda keçirilən Formula 1 yarışına yüksək qiymətin verilməsindən məmnunluğunu ifadə edib. Ölkəmizə gələn turistlərin sayının ildən-ilə sürətlə artdığını deyən Prezident İlham Əliyev ötən il xarici turistlərin Azərbaycanda iki milyard dollardan çox vəsait xərclədiklərini qeyd edib və bildirib ki, yarım milyarda yaxın tamaşaçı auditoriyasına malik olan Formula 1-in Bakıda keçirilməsi ölkəmizə turist axınının təmin olunması işinə böyük töhfə verir. Bütün bunlar, öz növbəsində, Azərbaycanda turizm sənayesinə cəlb olunmuş kiçik və orta sahibkarlığın inkişafı üçün geniş imkanlar yaradır.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 5-də Moskvanın və bütün Rusiyanın Patriarxı Kirillə görüşüb.

## Muxtar respublikada əhalinin alıcılıq qabiliyyəti artmışdır

*Muxtar respublikada ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasına uyğun olaraq bütün sahələrdə həyata keçirilən tədbirlər, ümumi inkişafın təmin edilməsi üzrə qəbul olunmuş dövlət proqramlarının uğurlu icrası, yeni istehsal və xidmət sahələrinin istifadəyə verilməsi makroiqtisadi göstəricilərin pozitiv meyilliliyini qoruyub saxlamış, yüksək nəticələr qazanılmışdır.*

İqtisadi və sosial sahələrdə qeydə alınmış davamlı inkişafın nəticəsi olaraq Azərbaycan Respublikası Prezidentinin sədri olduğu "Caspian European Club"un hər il üçün hazırladığı investisiya reytinqində Naxçıvan Muxtar Respublikası ardıcıl olaraq 2017-ci və 2018-ci illərdə ölkənin iqtisadi rayonları arasında sosial-demoqrafik göstərici, sosial-iqtisadi vəziyyət, işgüzar mühit, infrastruktur, rifahlıq və kənd təsərrüfatı sahələri olmaqla, ümumilikdə, 18 parametr üzrə ən yüksək ümumi bal toplayaraq lider olmuşdur.

Muxtar respublikada 2008-ci illə müqayisədə 2018-ci ildə ümumi daxili məhsul istehsalı 3,5 dəfə, sənaye məhsulu 6 dəfə, əsas kapitala yönəldilən vəsaitlər 3,3 dəfə, kənd təsərrüfatı məhsulu 3,1 dəfə, nəqliyyat sektorunda yük daşınması 1,9 dəfə, informasiya və rabitə xidmətləri 2,2 dəfə, əhaliyə göstərilən ödənişli xidmətlər 3,5 dəfə artmışdır.

Əhali məşğulluğunun təmin olunması üzrə təkcə 2008-ci ildən 1 yanvar 2019-cu il tarixədək muxtar respublikada 43 min 717 yeni iş yeri açılmışdır ki, bunun da 87,7 faizi daimi iş yerləridir. Həyata keçirilən uğurlu siyasətin nəticəsi olaraq məşğul əhalinin sayı 2008-ci ilin sonu ilə müqayisədə 22,8 faiz artaraq 237,4 min nəfərə çatmışdır. Yüksək əməktutumlu iş yerlərinin yaradılması əhalinin səmərəli məşğulluğunu təmin etmiş, bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı göstəricisi 433 manat olmuşdur. 2008-ci ildə bu göstərici 235,2 manat səviyyəsində olmuşdur.

Muxtar respublikanın sosial-iqtisadi həyatının bütün sahələrində qazanılan uğurlar əhalinin rifah halını yaxşılaşdırmış, alıcılıq qabiliyyətini yüksəltmişdir. Bunun nəticəsi olaraq 2018-ci ildə pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri 1 milyard 638 milyon manata yaxın olmuşdur ki, bu da 2008-ci ildəki göstəricidən 4,2 dəfə çoxdur.

***Pərakəndə ticarət şəbəkəsində satılmış məhsulların dəyəri, min manat***




2018-ci ildə istehlak malları üzrə satışın 96,2 faizini pərakəndə ticarət şəbəkələri təşkil etmişdir ki, bunun da 9,8 faizi ticarət təşkilatlarının, 19,4 faizi kənd təsərrüfatı məhsulları bazarlarının, 17,2 faizi ərzaq, qeyri-ərzaq və qarışıq mallar satışı ilə məşğul olan yarmarkaların və 53,6 faizi fiziki şəxslərin payına düşmüşdür. Pərakəndə ticarət şəbəkələrində satılmış istehlak mallarının 48,8 faizini ərzaq, 51,2 faizini isə qeyri-ərzaq malları təşkil edib.

Ucuzluğu və keyfiyyəti ilə seçilən yerli məhsulların pərakəndə ticarət şəbəkələrində çoxluğu əhalinin alıcılıq qabiliyyətinin artmasına da müsbət təsir göstərmişdir. 2018-ci ilin sonuna muxtar respublikada 383 növdə məhsul istehsal olunmuşdur ki, bunun da 350-si və ya 91,4 faizi tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsinə imkan yaradıb. Yerli istehsalın inkişafı daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında, idxaldan asılılığın azaldılmasında, ən əsası səmərəli məşğulluğun təmin edilməsində mühüm rol oynayır. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" kimi qəbul olunması da yerli istehsalın həcminin artırılmasına şərait yaradacaq, əhalinin alıcılıq qabiliyyətini daha da yüksəldəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Kənd təsərrüfatının inkişafı iqtisadi sabitliyin başlıca şərtidir

*Naxçıvan Muxtar Respublikasının ərazisi kənd təsərrüfatının inkişafı üçün münbit şəraitə malikdir. Son illərdə bu sahənin inkişafı istiqamətində həyata keçirilən məqsədyönlü və çoxsaylı tədbirlər öz bəhrələrini verib. Hazırda ümumi daxili məhsul istehsalında sənaye sahəsi ilk yeri tutsa da, kənd təsərrüfatı məhsullarının istehsal həcmindəki artım bütün sahələrdən öndədir. Bu isə, hər şeydən əvvəl, aqrar sektora göstərilən böyük dövlət qayğısı ilə əlaqədardır. Bu qayğını 2018-ci ilin timsalında daha aydın görmək mümkündür.*



Hər şeydən əvvəl, onu vurğulayaq ki, muxtar respublikada aqrar sahənin elmi şəkildə inkişafı təməl prinsiplərdən sayılır. Bunun nəticəsidir ki, ötən il Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına "Araz" Elm-İstehsalat Birliyi, həmçinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsi üçün yeni inzibati bina istifadəyə verilmiş, müasir avadanlıqlarla təchiz edilmiş Aqrokimya Laboratoriyası yaradılmışdır. Əvvəlki illərdə olduğu kimi 2018-ci ildə də taxılçılıq əkinçilikdə üstünlüyünü qoruyub saxlamış, yaradılmış şərait nəticəsində yüksəkkeyfiyyətli toxum sortlarından istifadə olunaraq ötən ilin məhsulu üçün 61 min 935 hektar sahədə əkin aparılmışdır. Strateji əhəmiyyəti nəzərə alınaraq əkilmiş sahələrin 52 faizindən çoxunda, yəni 32 min 483 hektarda taxıl səpini aparılmış, zəmilərdən 97 min 689 ton məhsul yığılmışdır.

Son bir neçə ildə əkinçilikdə diqqətçəkən məhsul növlərindən biri də qarğıdalıdır. Həm heyvandarlıqda, həm də ərzaq təminatında əhəmiyyətli rol oynayan qarğıdalı, eyni zamanda torpaq mülkiyyətçilərinin yaxşı qazanc əldə etməsinə geniş imkanlar açır. 2018-ci ildə 1174 hektar qarğıdalı əkini sahəsindən 10 min 524 ton məhsul tədarük olunmuş, məhsuldarlıq hər hektardan 90 sentnerə çatmış, 2017-ci illə müqayisədə 19 faiz artmışdır.

Bu gün muxtar respublikada torpaq mülkiyyətçilərinə maliyyə dəstəyinin gücləndirilməsi, texnika və gübrə ilə təchizatın yaxşılaşdırılması, suvarma sistemlərinin yenilənməsi, hazır məhsulun satışı və saxlanılması üçün əlverişli şəraitin təmin edilməsi kənd təsərrüfatı məhsullarının istehsal həcmini artırmışdır. Digər sahələrə diqqət etsək, görərik ki, 2018-ci ildə 6 min 183 hektar sahədə tərəvəz, 2 min 776 hektar sahədə bostan məhsulları əkinləri həyata keçirilmiş, yeni meyvə bağlarının salınması davam etdirilmişdir. Üzümçülüyün inkişafını təmin etmək məqsədilə yerli imkanlardan səmərəli istifadə olunmuşdur. Bundan əlavə, tütünçülüyün inkişafı üçün də bir sıra tədbirlər görülmüş, Şərur, Babək və Kəngərli rayonlarında, ümumilikdə, 41,5 hektar sahədə tütün əkini aparılmış, bir il öncəyə nisbətən əkin sahəsi 4,6 dəfə artırılmışdır.

Bu gün torpaq mülkiyyətçilərinin əl əməyini yüngülləşdirən, onları daha böyük torpaq sahələrini əkib-becərməyə həvəsləndirən amillər sırasında kənd təsərrüfatı texnikaları ilə təminat mühüm yer tutur. Bu amil nəzərə alınaraq hər il muxtar respublikamıza "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə müxtəlif təyinatlı texnika və avadanlıqlar gətirilir. 2018-ci ildə də bu sahə diqqətdə saxlanılmış, cəmiyyətin xətti ilə müxtəlif adda 321 kənd təsərrüfatı texnikası gətirilmiş, məhsul istehsalçılarına 5 min 156 ton mineral gübrə verilmişdir.

Təbii ki, əkinçiliyin mühüm tələblərindən biri də suvarma suyuna olan ehtiyacın ödənilməsidir. Son illərdə muxtar respublikada yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması da mütərəqqi suvarma şəbəkələrindən istifadənin aktuallığını artırır. Buna görədir ki, hər il muxtar respublikada aparılan meliorativ tədbirlərin həcmi artır, yeni suvarma şəbəkələri qurulur. 2018-ci ildə də bu iş davam etdirilmiş, Kəngərli rayonunun Böyükdüz kəndi ərazisində 616 hektar sahəni əhatə edən qapalı suvarma şəbəkəsi istifadəyə verilmişdir.

Ərzaq təminatında xüsusi çəkiyə malik olan heyvandarlığın inkişafı da ötən il diqqət mərkəzində saxlanılmış, bu məqsədlə fermerlərə 4 milyon 563 min manat həcmində kredit verilmiş, yeni heyvandarlıq təsərrüfatları yaradılmışdır. Məhsuldarlığı yüksəltmək, mal-qaranın cins tərkibini yaxşılaşdırmaq üçün süni mayalanma tədbirlərinin əhatə dairəsi genişləndirilmiş, Babək rayonunda Süni Mayalanma Mərkəzinin yaradılmasına başlanmışdır. Ümumilikdə isə, 2018-ci ilin yanvar-noyabr ayları ərzində kənd təsərrüfatının müxtəlif sahələri üçün banklar və bank olmayan kredit təşkilatları tərəfindən sahibkarlara 5 milyon 346 min manat kredit verilmişdir.

Nəzərə almaq lazımdır ki, bu gün muxtar respublikamızda əhalinin ilin istənilən fəslində müxtəlif kənd təsərrüfatı məhsulları ilə təmin olunmasında həm istixana komplekslərinin, həm də soyuducu anbarların böyük rolu var. Bu gün artıq muxtar respublikada kənd təsərrüfatı və ərzaq məhsullarının saxlanması üçün ümumi tutumu 14 min 245 ton olan 33 soyuducu anbar fəaliyyət göstərir. Eyni zamanda ümumi sahəsi 129 min 162 kvadratmetr olan 22 istixana kompleksi mövcuddur.

Bunu da vurğulamaq lazımdır ki, kənd təsərrüfatı məhsullarının satışı ilə bağlı həyata keçirilən tədbirlərdən biri də bu istiqamətdə müxtəlif festivalların keçirilməsidir. Bu, 2018-ci ildə də davam etdirilmişdir. Ənənəvi olaraq keçirilən "Arıçılıq məhsulları – bal", "Ailə təsərrüfatı məhsulları" festivalları artıq torpaq mülkiyyətçisinin öz məhsulunu daha çox istehlakçıya tanıtmaq imkanı qazandırmışdır. Bu festivallarda iştirak edən ailə təsərrüfatlarının da iqtisadiyyatın, xüsusilə də aqrar sektorun inkişafında mühüm rolu var. 2019-cu ilin muxtar respublikamızda "Ailə təsərrüfatları ili" elan olunması isə kənd təsərrüfatı sahəsində daha böyük perspektivlərdən xəbər verir.

Təbii ki, kənd təsərrüfatı sahəsinə göstərilən böyük dövlət qayğısı özünü əldə olunan nəticələrdə bir daha göstərir. Belə ki, 2018-ci ildə muxtar respublikada 411 milyon manatdan çox kənd təsərrüfatı məhsulları istehsal olunub. Bu, 2017-ci illə müqayisədə 4 faiz çoxdur. Ümumilikdə isə, kənd təsərrüfatının inkişafı üçün atılan addımlar bu sahənin davamlı inkişafını təmin etməklə yanaşı, həm də iqtisadi sabitliyin qorunub saxlanılmasına öz töhfəsini verir.

**✍ Səbuhi HƏSƏNOV**

İnkişaf edən bölgələrimiz

# Culfa rayonu ötən ili uğurla başa vurub

*Qədim diyarımızın digər bölgələri kimi, Culfa rayonu da həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində sürətli inkişaf yolu keçib. Rayon iqtisadiyyatında özünəməxsus yeri olan özəl sektor inkişaf tempini 2018-ci ildə də davam etdirib. Bu sahədə dövlət dəstəyi mexanizminin gücləndirilməsi, güzəştli şərtlərlə kreditlərin verilməsi, həmçinin maliyyə dəstəyinin göstərilməsi rayonda kiçik və orta sahibkarlıq subyektlərinin inkişafına münbit şərait yaradıb.*



Sahibkarlıq fəaliyyətinin dəstəklənməsi, əlverişli biznes mühitinin yaradılması sahəsində həyata keçirilən tədbirlər bölgədə istehsal potensialının güclənməsinə səbəb olub.

Rayon iqtisadiyyatının bütün sahələrinin dinamik inkişafı tikinti-quraşdırma, abadlıq və yenidənqurma işlərinin artmasına, yeni infrastruktur obyektlərinin yaradılmasına, mövcud yaşayış binalarının və digər obyektlərin əsaslı təmirinə imkan verib. Ötən il rayonda “Naxçıvan Avtomobil Zavodu” Məhdud Məsuliyyətli Cəmiyyətinin servis mərkəzi, Dizə və Qazançı kəndlərində isə kənd və xidmət mərkəzləri, yeni məktəb binaları tikilib istifadəyə verilib, tarixi Qazançı körpüsü elmi əsaslarla bərpa edilib. Rayon mərkəzinin Mehdi Hüseynzadə küçəsindəki 30 və 32 nömrəli çoxmənzilli yaşayış binalarının əsaslı təmiri başa çatdırılıb, mərkəzi stadion yenidən qurulub, burada 80 nəfərlik tribuna tikilib, basketbol və voleybol meydançası yaradılıb. Qazançı və Dizə kəndlərində 384 nömrə tutumlu avtomat telefon stansiyası yeni binaya köçürülüb. Qazançıda həkim ambulatoriyası, Dizə kəndində isə feldşer-mama məntəqəsi üçün yeni binalar tikilib istifadəyə verilib.

Hazırda Culfa şəhərində “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətinin Yük və Sərnişin Daşımaları İdarəsinin vaqon təmiri sexinin tikintisi və Culfa-Ordubad magistral avtomobil yolunun qurulması davam etdirilir.

Rayonda iqtisadiyyatın inkişafı diqqət mərkəzində saxlanılır, əhalinin həyat səviyyəsi ilbəil yüksəldilir, sahibkarlığın bütün sahələrində uğurların əldə edilməsinə şərait yaradılır. Dövlət dəstəyi rayonda sənayenin inkişafında mühüm rol oynayır. Ötən il bölgədə 7 milyon 733 min 300 manatlıq sənaye məhsulu istehsal edilib.

Rayon iqtisadiyyatında aparıcı sahə olan kənd təsərrüfatının inkişafı da diqqət mərkəzində saxlanılıb. Belə ki, kənd təsərrüfatı məhsulları istehsalçılarına 50 faiz güzəştli şərtlərlə dövlət yardımı edilib. Müxtəlif kredit təşkilatları tərəfindən 574 nəfər kənd təsərrüfatı məhsulları istehsalçısına 971 min 400 manatı heyvandarlıq, 9 min 500 manatı əkinçilik, 113 min manatı isə arıçılıq sahəsinə olmaqla, ümumilikdə, 1 milyon 93 min 900 manat kredit verilib. Sahibkarların kənd təsərrüfatı texnikasına olan tələbatının ödənilməsi üçün də tədbirlər görülüb, aqrolizinq xətti ilə 3-ü kombayn, 2-si traktor olmaqla, ümumilikdə, 30 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və aqreqatı sahibkarlara satılıb. Bütün bunlar rayonda kənd təsərrüfatının müxtəlif sahələrinin, o cümlədən əkinçiliyin inkişafında əsaslı rol oynayıb.

Dövlətimizin yaratdığı şəraitdən yararlanan rayonun torpaq mülkiyyətçiləri isə daim məhsuldarlığın yüksəldilməsinə çalışırlar. 2018-ci ilin məhsulu üçün əkilmiş 7392 hektar sahədən 14012 ton buğda, 3453 ton arpa, 1637 ton dənli-paxlalı, 3006 ton kartof, 4468 ton tərəvəz, 1854 ton bostan məhsulları, 36,3 ton qarğıdalı, 37,2 ton günəbaxan yığılıb. 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə buğda əkilmiş sahələrdən tədarük edilən məhsul 9,3 faiz, arpa əkilmiş sahələrdən yığılan məhsul 13,1 faiz, kartof əkilmiş sahələrdən yığılan məhsul 1,2 faiz artıb.





Ötən il rayonda kənd təsərrüfatının bütün sahələri ilə yanaşı, heyvandarlıq da inkişaf etdirilib. 2018-ci ildə yeni doğulmuş 941 baş buzov üçün istehsalçılara 94 min 100 manat dövlət yardımı ödənilməsi heyvandarlıq məhsulları istehsalının artmasına səbəb olub.

Bölgədə ekoloji cəhətdən təmiz meyvə-tərəvəz məhsullarının yetişdirilməsi üçün əlverişli şərait vardır. Bu sahədə görülən tədbirlər nəticəsində ötən il rayonda 8150 meyvə ağacı əkilib. Barverən meyvə bağlarından 3267 ton, üzüm bağlarından isə 6028 ton məhsul yığılıb.

Rayonda ekologiyanın mühafizəsi və bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi istiqamətində işlər davam etdirilib, ekoloji tarazlığın qorunmasında müstəsna rola malik yaşıllıq zolaqlarının bərpası və artırılması davam etdirilib. Belə ki, bəhs olunan dövrdə 11,5 hektar sahədə yeni yaşıllıqlar və 2,4 hektar sahədə üzüm bağı salınıb, 11,85 hektar mövcud yaşıllıq sahəsində meşə bərpa işləri aparılıb, 608 həmişəyaşıl ağac, 4000 üzüm, 1690 çoxillik gül kolu əkilib.

Kənd təsərrüfatının inkişafında mühüm əhəmiyyətə malik olan arıçılıq həm də yüksək gəlirgətirən sahə kimi diqqət mərkəzində saxlanılıb. “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın qəbul olunması, Naxçıvan şəhərində “Arıçılıq məhsulları – bal” festivalının keçirilməsi rayonda bu sahəyə marağı daha da artırıb. Sahibkarlara kreditlərin verilməsi öz müsbət nəticəsini göstərib. Cari ildən arıçılıqla məşğul olan hüquqi və fiziki şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiyaların verilməsi də bu sahənin inkişafına yeni stimul yaradacaqdır.

Bu gün muxtar respublikamızda daxili bazara öz töhfələrini verən ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların satışı üçün əlverişli şərait mövcuddur. Bu baxımdan Naxçıvan şəhərində keçirilən “Ailə təsərrüfatı məhsulları” festivalları mühüm rol oynayır. Ötən il noyabrın 10-da “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən növbəti festivalda Ali Məclisin Sədri digər mühüm tapşırıqlarla yanaşı, muxtar respublikanın bütün rayonlarında da ailə təsərrüfatı məhsulları festivallarının keçirilməsi və nümunəvi ailə təsərrüfatlarının iş təcrübələrinin yayılması barədə tapşırıqlar verib. Bu tapşırıqların icrası ilə əlaqədar ilk festival Culfa şəhərində keçirilib. Festivalda rayonun kəndlərindən 30-a yaxın ailə təsərrüfatı tərəfindən 128 adda 1320 qablaşdırılmış kənd təsərrüfatı məhsulları nümayiş etdirilib.

Rayonda digər sahələr də diqqətdə saxlanılıb. Meliorasiya və irriqasiya sistemlərinin yeniləşdirilməsi, sosial-mədəni və iqtisadi inkişafın mühüm sahələrindən biri olan yol tikintisi, yeni yolların çəkilişi və mövcud yolların təmiri, informasiya və rabitə sahəsində yeni texnologiyaların tətbiqi, əhaliyə göstərilən rabitə xidmətinin keyfiyyətinin daha da yüksəldilməsi, istehlakçıların fasiləsiz elektrik enerjisi ilə təminatı, transformator yarımstansiyalarının, elektrik verilişi xətlərinin təmiri və yeniləşdirilməsi işləri aparılıb. Əhalinin təbii qazla təmin olunması istiqamətində də müvafiq işlər görülüb. Rayonda iqtisadiyyatın bütün sahələrinin, eləcə də fərdi sahibkarlığın inkişaf etdirilməsi yeni iş yerlərinin açılması ilə nəticələnib, əhalinin rifah halının yaxşılaşmasına, onların məşğulluğunun təmin olunmasına müsbət təsir göstərib. Ötən il rayonda 310 yeni iş yeri açılıb. Bunun 291-i özəl sektorun payına düşüb. Yeni iş yerlərinin açılması və əhali məşğulluğunun təmin olunması rayon sakinlərinin gəlirlərinin həcminə də müsbət təsir göstərib, onların alıcılıq qabiliyyəti güclənib.

Ötən il təkcə makroiqtisadi göstəricilərdə deyil, eyni zamanda təhsil, səhiyyə, mədəniyyət sahələrində də uğurlu nəticələr əldə olunub. Təhsilə göstərilən dövlət qayğısının nəticəsidir ki, 2017-2018-ci tədris ilində rayon məktəblərinin 346 məzunundan 282 nəfəri ali məktəblərə qəbul üçün sənəd verib, onlardan 171-i ali, 32-si isə orta ixtisas təhsili müəssisələrinə qəbul olunub. Məzunlardan biri yüksək nəticə göstərərək Prezident təqaüdünə layiq görülüb. Səhiyyə və mədəniyyət sahələrində də qazanılan uğurlar da hərtərəfli dövlət qayğısının ifadəsi kimi diqqəti çəkir.

Culfa rayonunda bütün istiqamətlər üzrə həyata keçirilən kompleks tədbirlər, göstərilən davamlı dövlət qayğısı, rayon sakinlərinin qurub-yaratmaq əzmi bunu deməyə əsas verir ki, əldə edilən uğurlar davamlı olacaq, bölgə daha da inkişaf edəcəkdir.

**Güntac ŞAHMƏMMƏDLİ**

# Alın təri ilə suvarılan torpaq qurumaz

*Şərur rayonunda hansı təsərrüfata getsən, orada zəhmətkeş insanları görmək mümkündür. Cəlilkənd sakini Yaqub Tağıyev də onlardan biridir. Onunla söhbətimiz zəhmətlə əkib-becərdiyi əkin sahəsinin kənarında baş tutdu:*

– Əkinçiliyə 2006-cı ildən başlamışam. Əkib-becərməkdə təcrübəsi olan böyüklərimizdən məsləhətlər alıb, 13 hektar torpaqda ailə üzvlərimizin köməyi ilə taxıl əkdim. İlk vaxtlar torpağın dilini yaxşı bilmədiyimiz üçün istədiyimizə nail ola bilmirdik. Lakin ruhdan düşmədik. Torpağa alışdıq, təcrübəmiz artdı. Əbəs yerə atalarımız “Torpaq deyir: sən mənə tər ver, mən sənə zər verim” deməyiblər. Şükür Allaha, çəkdiyimiz zəhmətin də, əməyin də qarşılığını ikiqat alırıq. Şəhərlərdə dükan-bazarların yerli məhsullarla dolması, bol ruzi-bərəkət məhz torpaqlarımızın üzümüzə gülməsi sayəsindədir. Bu məhsullar zəhmətdən hasilə gəlir, əhalinin rifah halının yaxşılaşmasına öz töhfəsini verir.

Müsahibim onu da deyir ki, təbiətin bizə bəxş etdiyi ən böyük sərvəti – torpağı sevmək, qayğısına qalmaqla özümüzə yaxşılıq etmiş oluruq. Axı torpaq əkdiyimiz zəhməti hədər eləmir. O da canlıdır, onun da öz dili var və qayğıya möhtacdır. Əgər torpağı öz dilində danışdıra bilsək, nazını çəkib qayğıya bürüsək, onda istədiyimizi əldə edə bilərik. Bu qiymətli sərvətdən lazımınca bəhrələnən, torpağı özünə iş yeri hesab edən insanlar yanılmırlar. Əksinə, ruzi-bərəkətlərini oradan götürür, sağlam həyat tərzi keçirirlər. Çalışsan, əziyyət çəksən, bəhrəsini də görərsən. Ailə təsərrüfatları yaratmaq, sahibkarlıqla məşğul olmaq üçün dövlət dəstəyi də yetərincədir. Kim istəsə, kredit götürə, lizinq yolu ilə texnika ala bilər.



Təsərrüfat suyumuz da boldur. Axarlı-baxarlı Arpaçay bizim ərazidən keçir. Belə şəraitdə çalışmamaq, torpaqdan uzaq düşmək tənbəl adamların işidir. Gördüyünüz bu sahədə kartof, soğan, taxıl əkmişik. Çəkdiyimiz zəhmətin bəhrəsini toplayıb, yığımı yekunlaşdırıb yerində yenidən şum qaldırdıqdan sonra gübrə vermişik ki, yaz əkininə hazır olsun. Torpaq sahələrinin 80 hektarını icarəyə götürmüşəm. Burada 70-dən artıq işçi çalışır. İşçi sayı mövsümə görə dəyişir.

Yaqub onu da bildirir ki, təsərrüfatı böyüdükcə ailə təsərrüfatından sahibkarlığa addım-addım yaxınlaşıb. Muxtar respublikada ailə təsərrüfatlarının inkişafına yaradılan münbit şəraitdən istifadə edib. İlk olaraq lizinq yolu ilə bir traktor alıb. Sonra isə topladıqları məhsulların uzun müddət saxlanılması üçün soyuducu anbar inşa etdirməyə qərar verib. Elə bu məqsədlə 2016-cı ildə Sahibkarlığın İnkişafı Fondundan 50 min manat kredit götürüb. Birinci 600, sonra isə 300 ton tutumu olan soyuducu anbar kompleksi inşa etdirib. Sahibkar onu da bildirir ki, soyuducu anbarların yaradılması həm məhsulları qış dövründə istehlakçıya çatdırmağa, həm də ixracı daha da artırmağa imkan verir. Bu anbarların hər biri yeni iş yerlərinin açılması ilə bərabər, həm də əhalinin meyvə-tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir. Hazırda soyuducu anbarlarda 10 nəfərə yaxın işçi çalışır. Qonşu kəndlərdən də buraya məhsul gətirənlər var. Saxlanması üçün 7 ay müddətinə məhsulun hər kiloqramına 10 qəpik ödənilir.

Yaqub Tağıyev maraqlı bir məqamdan da söhbət açdı: – Əvvəllər kəndlərimizdə sahibsiz qalan, əkilməyən torpaq sahələrinə baxanda adamın ürəyi ağrıyırdı. Ən adi məişət qayğıları məngənəsində əziyyət çəkən kənd adamları şəhərə üz tutmuşdular. Amma indi bütün bu çətinliklər aradan qaldırılıb, həmin qayğılar öz həllini tapıb, bir traktorun, kombaynın gündəlik işi, keçmişin aylarla çəkilən əzab-əziyyətini arxada qoyub. Artıq həmin çətinliklərdən əsər-əlamət belə, yoxdur. Hətta övladlarımız bir zamanlar bu çətinlikləri yaşadığımıza inanmırlar. Çünki bu gün muxtar respublikamızda əhalinin rifahının yaxşılaşdırılması üçün görülən tədbirlər öz bəhrəsini verir.

Yaqub Tağıyevin söhbətindən belə qənaətə gəlmək olar ki, bu günün ailə təsərrüfatlarına göstərilən qayğı belə təsərrüfatların gələcəkdə sahibkarlıq subyektlərinə çevrilməsinə imkan verir. Müsahibimiz də onlardan biridir.

**Ramiyyə ƏKBƏROVA**

# Ailə təsərrüfatı sahibləri ilə görüş keçirilib

Babək Rayon İcra Hakimiyyətində keçirilən tədbiri İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov açıb. Qeyd olunub ki, 2019-cu il muxtar respublikada “Ailə təsərrüfatları ili” elan olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 22 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasında ailə təsərrüfatlarının inkişafı ilə bağlı Tədbirlər Planı” təsdiq edilib. Bununla əlaqədar həyata keçirilən tədbirlər mövcud potensialdan səmərəli istifadə olunmaqla Babək rayonunda da yeni ailə təsərrüfatlarının yaradılmasına təkan verəcək.

Rasim Hüseynov bildirib ki, aqrar rayon olan Babəkdə kənd təsərrüfatının dinamik inkişafı üçün kompleks tədbirlər həyata keçirilib, yeni suvarma şəbəkələri qurulub, torpaq mülkiyyətçiləri texnika və texnoloji avadanlıqlarla təmin edilib. Artıq rayonun kəndlərində yaşayış məntəqələrinin təsərrüfatçılıq ənənələrinə uyğun ailə təsərrüfatları formalaşıb.

Vurğulanıb ki, ailə təsərrüfatı məhsullarının satışına dəstək verilməsi üçün dövlət tərəfindən hərtərəfli şərait yaradılıb. Belə ki, təsərrüfat sahibləri məhsullarını Naxçıvan şəhərindəki mərkəzi bazarda satmaqla yanaşı, təşkil olunan ənənəvi “Ailə təsərrüfatı məhsulları” festivallarına da çıxarırlar. Ötən il təşkil olunan fetivalda babəkli sahibkarlar da yaxından iştirak edib, festivala 50 ailə təsərrüfatı tərəfindən 136 növdə 3014 qablaşdırılmış məhsul çıxarılıb. Sahibkarlardan biri “Ən yaxşı məhsul” nominasiyasında ikinci dərəcəli diploma təltif edilib.

Tədbirdə ailə təsərrüfatı başçılarının çıxışları olub.

**Xəbərlər şöbəsi**

# Qədim Nehrəm məhəllələri
## *tarixdə və günümüzdə*

*Adından və tarixindən həmişə qürurla danışdığımız Nehrəm qədim kəndlərimizdəndir. Tarixən ölkəmizin ictimai-siyasi həyatında baş verən hadisələrin önündə gedib bu kənd. "Bu dünyada sözdən böyük yadigar yoxdur, zira ki bütün mal-mülk tələf olub gedər, amma söz qalar", – deyən və bu il 150 illiyini qeyd etdiyimiz Cəlil Məmmədquluzadə kimi böyük söz ustası 7 il Nehrəmdə yaşayaraq ədəbi yaradıcılığının ən gözəl nümunələrini burada yaradıb.*

Xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyevin siyasi xəttini daim dəstəkləyən nehrəmlilər ötən əsrin 90-cı illərində – ölkəmizin tarixi sınaq qarşısında olduğu bir vaxtda, təlatümlü şəraitdə dahi şəxsiyyətlə Nehrəmdə görüşərək Ona olan inam və sədaqətlərini ifadə etdilər. Bu sədaqət, etibar əbəs yerə göstərilmirdi. Çünki nehrəmlilər ölkəmizin gələcəyini bu Böyük Şəxsiyyətdə görürdülər. Müstəqillik illərində Nehrəmin muxtar respublikanın abad kəndlərindən birinə çevrilməsi ümummilli liderin siyasi xəttinə olan sadiqliyin bəhrəsidir. Bu yaşayış məntəqəsi günbəgün müasirləşdikcə, gözəlləşdikcə burada məskunlaşma artıb, yeni məhəllələr salınıb.



Çaylaq məhəlləsi



Cəlil Məmmədquluzadənin Çaylaq məhəlləsində məskunlaşdığı həyət



Hasar məscidi və məhəlləsi

Nehrəmin coğrafi mövqeyinin və ərazi quruluşunun formalaşmasında buradakı məhəllələr məxsusi rola malikdir. Ümumiyyətlə, məhəllələrin salınması və onlarda məskunlaşmanın artmasına ən böyük vasitə vaxtilə həmin ərazilərdə sututarların və yeraltı su mənbələrinin – quyuların olması idi. Müasir dövrdə Nehrəmdəki bir çox məhəllə adları unudulsa da, Çaylaq, Xəndək, Təpəbaşı, Hasar, Qumqala, Selov, Şişkin, Bağarası adları bu gün də qalmaqdadır.

Bu məhəllələrin ən böyüyü Çaylaqdır. Mərgalı və Köş düzləri, Qarnıyarıq kimi dağlardan axan sel suları vaxtilə həmin məhəllədə birləşib Araz çayına tökülürdü. Yaşayış məntəqəsinin qədim ibadət ocaqlarından olan Güllü məscid də məhz Çaylaq məhəlləsində yerləşir. Çaylağa yaxın olan məhəllələrdə 4 məscidin olması isə Nehrəmdə tarixən milli-mənəvi və dini dəyərlərə sadiqlikdən xəbər verir. Çaylaq həm də digər qədim məhəllələrin kəsişdiyi yerdədir.

Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Cəlil Məmmədquluzadə də bir vaxtlar burada yaşayıb. Yaşlı sakinlər dahi ədibin Nehrəm kəndinə gəlməsini və Çaylaq məhəlləsində məskunlaşmasını atababalarından belə eşidiblər: "Günorta azanına bir az qalmış Çaylaq məhəlləsindəki məscidin qabağında fayton dayandı, sərnişin balaca əl çamadanını götürüb, ehtiyatla yerə düşdü... Cəlil Məmmədquluzadə Çaylaqla Bağçabaşı məhəlləsindən gələn dar küçənin kəsişməsindəki birmərtəbəli, möhrə ilə tikilmiş evdə yaşayırdı".

1890-1897-ci illərdə Nehrəmdə yaşayıb burada məktəb açaraq ilk dəfə qızları təhsilə cəlb edən böyük demokrat Mirzə Cəlil Həlimə xanım Nağı qızı ilə ailə həyatı qurmuş, bu izdivacdan Münəvvər xanım Məmmədquluzadə dünyaya gəlmişdir. Münəvvər xanım müxtəlif illərdə Çaylaq və Qumqala məhəllələrində yaşamış, Nehrəmdə tibb bacısı kimi fəaliyyət göstərmişdir.

Çaylaq məhəlləsinin qurtaracağı Təpəbaşı məhəlləsinə dayanır. Bu məhəllədə eyniadlı məscid və tarixi İmamzadə türbəsi yerləşir. Ötən əsrin əvvəllərində quldur Andranik Ozanyan Culfa rayonunun Yaycı kəndindən başlayaraq Əlincəçay ətrafı kəndlərə, oradan Sirab və ətraf yaşayış məntəqələrinə divan tutduğu bir vaxtda nehrəmlilər düşmənə qarşı inadlı mübarizə aparıblar. Həmin vaxt kənddə mövcud bir topu Xəndək, Çaylaq, Təpəbaşı məhəlləri boyunca gəzdirərək düşmənin diqqətini yayındırıb, qarşı tərəfi silah-sursatların kifayət qədər çox olduğuna inandırıblar. Sakinlərin sözlərinə görə, qız-gəlinlərin düşmənə əsir düşmə ehtimalını düşünən kənd ağsaqqalları onları məscidlərdən birinə toplayıblar. Cavanlara isə neft dolu qablar və kibrit verərək məğlubiyyət üz verərsə, binanı yandırmağı tapşırıblar.

Ötən əsrin 90-cı illərində ölkəmizdə və muxtar respublikamızda siyasi sabitliyin və vahid idarəetmənin olmadığı bir vaxtda nehrəmlilər "Klubun qabağı" adlanan məhəllədə dahi şəxsiyyət Heydər Əliyevlə görüşərək ümummilli liderin Azərbaycan Ali Sovetinə deputat kimi namizədliyini irəli sürdülər. Bu gün həmin məhəllə Nehrəmdə "Heydər Parkı" kimi tanınır və üçrəngli bayrağımızın dalğalandığı bu ərazi kənd sakinləri üçün müqəddəs, əziz sayılır.

Nehrəm məhəllələrinə təkcə coğrafi anlayış kimi yanaşmaq yanlış olardı. Çünki bu məhəllələr yüz illərin mənəvi dəyərlərini, adət-ənənələrini qoruyub yaşadır. Qədim zamanlarda olduğu kimi, indi də Nehrəmdə Təpəbaşı məhəlləsində toy mağarı qurulan zaman camaat kəndin ən aşağı məhəlləsindən – Qaraqalıdan bura axışıb gəlir, toy yiyəsinin sevincinə şərik çıxaraq qol götürüb oynayırlar. Əgər birinin yası düşsə, ev sahibinin xəbəri olmadan qohum-qonşular yığışıb dəfn və yas mərasimi üçün lazım olan tədbirləri görürlər.

Dünən olduğu kimi, bu gün də məhəllələrin əsas mənəvi atributları ağsaqqal və ağbirçəklərdir. Kəndinə qəlbən vurğun olan, Nehrəmə üz tutan zaman həmişə müraciət etdiyimiz kənd ağsaqqalı Tofiq Abutalıbov deyir ki, ta qədimdən ağsaqqal sözünə, ağbirçək öyüdünə kənddə böyük hörmət olub. Sözünün kəsəri və ictimaiyyət arasında böyük nüfuzu olan, mübahisəli məsələlərdə ədalətli mövqe nümayiş etdirən ağsaqqallara Nehrəmdə "müvəkkil" deyilirdi. Onlar hər hansı ailə münaqişəsini, elçiliyi, qohum-qonşunun mübahisəli məsələlərini ədalətlə həll edərdilər. Necə deyərlər, bu insanların sözünün qabağında söz deyən yox idi. İndi tarixə çevrilən bu qədim məhəllələrin hər bir evində salınan süfrənin (Naxçıvan dialektində dəstərxan) başına ən azı 5-6 uşaq yığışardı.

Nehrəmlilər həm də zəhmətkeşlikləri ilə seçiliblər. Bu gün də məhəllə sakinlərinin "Pircüvar" adlanan ərazidə ailə əməyinə əsaslanan, kollektiv şəkildə qurub-yaratdıqları təsərrüfatlarda yetişdirdikləri qarpız Naxçıvan bazarında adla deyilir. Bu zəhmətin nəticəsidir ki, gənc ailələr hesabına kənddə yeni məhəllələr salınıb, kənd daha da böyüyüb. Artıq tarixin müəyyən dövrlərində öz sözünü deyən qədim Çaylaq, Xəndək, Hasar kimi məhəllələr mərkəz titulunu yeni sosial obyektlərin – kənd və xidmət mərkəzlərinin, tam orta məktəblərin, xəstəxananın salındığı Azərbaycan məhəlləsinə verib. Nehrəm o qədər böyüyüb ki, ondan yeni bir inzibati ərazi vahidi də ayrılıb: Arazkənd. Kəndin əksər cavan ailələri orada məskən salaraq kim bilir, bəlkə də, elə Nuh babanın özü tərəfindən bina edilən Nehrəmi Araz çayının düz sahilinədək "daşıyıblar".

Başdan-başa tarix qoxuyan, bu gün müasir Azərbaycan kəndinə çevrilən, ölkəmizin və muxtar respublikamızın elmi-mədəni, ictimai siyasi həyatına tanınmış simalar bəxş edən Nehrəm barədə fəxrlə danışılası, yazılası hələ çox məqam var.

**Muxtar RZAZADƏ**

# Tanınmış incəsənət xadiminin əsərlərindən ibarət sərgi açılıb

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda İran İslam Respublikasının tanınmış incəsənət xadimi, Tehran Universitetinin professoru, nəqqaş-xəttat Qulamrza Rahpeymanın "Bir rəssamın yaradıcılıq yolu" adlı rəsm sərgisi açılıb.***



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva tədbirdə çıxış edərək deyib ki, İran və Naxçıvan arasında qarşılıqlı mədəni əlaqələr inkişaf edir. Xalqlarımızın bir-birinə daha da yaxınlaşmasında memarlıq, xalq yaradıcılığı nümunələri, ədəbiyyat və rəssamlıq kimi sənət növləri mühüm rol oynayır. Bu sahədə həyata keçirilən birgə layihələr daha da genişlənir. Bu gün İran İslam Respublikasının tanınmış incəsənət xadimi Qulamrza Rahpeymanın rəsm sərgisinin açılışına, eləcə də İranda kalliqrafiya sənətinə dair yazdığı kitabın təqdimat mərasiminə yığışmışıq. Belə müştərək tədbirlər mədəniyyətlərimizin yaxınlaşmasına daha bir zəmin yaradır. İnanıram ki, bu gün ekspozisiyada nümayiş etdirilən "işarələrin ekspressiv, harmonik və incə zövqlə tərtibatı incəsənəti" adlandırılan, İslam aləmi tərəfindən mənimsənilib istifadə edilən, ərəb hərflərinin müxtəlif formalarda yazılması ilə meydana gələn yazı sənəti xəttatlıq və ya kalliqrafiya nümunələri insanların zövqünü oxşayacaq.

Tədbirdə İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Mənsur Ayrom, Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz, Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Əməkdar mədəniyyət işçisi Asim Yadigar, İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğunun Mədəniyyət Mərkəzinin sədri Məhəmmədrza Pakravan çıxış edərək ölkələr arasında mədəni əlaqələrin əhəmiyyətindən danışıblar. Çıxışlarda qeyd olunub ki, iranlı rəssam Qulamrza Rahpeymanın əsərlərindən ibarət sərginin keçirilməsi Naxçıvanda incəsənətə, mədəniyyətə verilən dəyərin bariz nümunələrindəndir.

Sərginin müəllifi, rəssam Qulamrza Rahpeyman yaradıcılığına verilən yüksək dəyərə görə minnətdarlığını bildirib.

Sonra incəsənət xadiminin "İranda kalliqrafiya və kitab sənəti" adlı kitabının təqdimatı keçirilib, sərgiyə baxış olub.



Sonda rəssam xəttatlıq nümunəsinin necə yaranmasını canlı olaraq tədbir iştirakçılarına təqdim edib.

Qeyd edək ki, rəssamın ekspozisiyada düşüncə, duyğu və emosiyalarını ifadə edən kufi və digər xətt növlərində işlənmiş 40 əsəri nümayiş etdirilir. Sərgi bir həftə davam edəcək.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

# Muxtar respublikanın 95 illik yubileyi ilə bağlı tədbir

***Dünən Naxçıvan Dövlət Film Fondunda Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyi ilə bağlı tədbir keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin aparıcı məsləhətçisi Kənan Tağızadə açaraq bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 21 yanvar 2019-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planında muxtar respublikanın 95 illiyinin geniş qeyd edilməsi, yubileylə bağlı mədəniyyət müəssisələrində müxtəlif səpkili tədbirlərin, interaktiv dərslərin keçilməsi nəzərdə tutulub.

Kənan Tağızadə qeyd edib ki, Naxçıvanın muxtariyyəti məsələsi ötən əsrin 20-ci illərində bölgədə baş vermiş ictimai-siyasi hadisələr nəticəsində meydana çıxıb. Naxçıvanın muxtariyyəti mürəkkəb, çətin və gərgin mübarizə nəticəsində əldə edilib. Uzun çəkən danışıqlardan sonra Moskva və Qars beynəlxalq müqavilələri ilə RSFSR, Türkiyə, Gürcüstan, Ermənistan və Azərbaycan Naxçıvanı Azərbaycanın tərkibində muxtar qurum kimi tanıyıb və ona beynəlxalq hüquqi təminat verilib. Ancaq Naxçıvana muxtariyyət statusu 1921-ci ildə verilsə də, Naxçıvan Muxtar Respublikasının yaradılmasına qədər üç il vaxt lazım olub.

Diqqətə çatdırılıb ki, son 20 ildən artıq dövrdə qədim diyarımızın siması dəyişib, şəhər, kənd və rayon mərkəzlərində irimiqyaslı tikinti-quruculuq, abadlıq və bərpa işləri həyata keçirilib, tarix, mədəniyyət, səhiyyə və təhsilə qayğı artıb, yeni infrastruktur obyektləri tikilib, muxtar respublika inkişaf və intibaha qovuşub.

Sonda qədim diyarımıza həsr olunmuş sənədli film göstərilib.

**Əli RZAYEV**

# Aztəminatlı ailəyə baş çəkilib

Naxçıvan Muxtar Respublikasının Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirliklərinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Kəngərli Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə rayonun Qarabağlar kəndində yaşayan aztəminatlı və çoxuşaqlı Səfərovlar ailəsinə baş çəkilib.

Görüş zamanı adıçəkilən təşkilatların əməkdaşları bildiriblər ki, muxtar respublikada sosial müdafiəyə ehtiyacı olan bütün kateqoriyalı ailələrə, o cümlədən aztəminatlı ailələrə hər zaman qayğı ilə yanaşılır, onların həyat səviyyəsinin yaxşılaşdırılması və problemlərinin həlli diqqət mərkəzində saxlanılır. Həmçinin aztəminatlı ailələrin sosial rifahını yüksəltmək üçün məşğulluq problemləri həll olunur, onlarla vaxtaşırı görüşlər təşkil edilir, maddi və mənəvi cəhətdən dəstək göstərilir. Bir sözlə, sosial sahəyə qayğının ildən-ilə artırılması ailələrimizin rifah halının yüksəlməsi ilə nəticələnir.

Sonra aztəminatlı ailənin yaşayış şəraiti ilə maraqlanılıb, ailə üzvlərinə səyyar tibbi xidmət göstərilib, ərzaq payı verilib və uşaqların ehtiyaclarına uyğun köməkliklər edilib.

Ailənin üzvləri diqqət və qayğıya görə öz minnətdarlıqlarını bildiriblər.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti, qarşıda duran vəzifələrə həsr edilmiş tədbirlər keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Naxçıvan Muxtar Respublikasında bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələr haqqında" keçirilən müşavirə ilə bağlı Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasında yığıncaq olub.*

Yığıncağı giriş sözü ilə açan Paralimpiya Federasiyasının sədr müavini Vüqar Məmmədov bildirib ki, muxtar respublikada fiziki imkanları məhdud insanların cəmiyyətə inteqrasiyası, sosial reabilitasiyası sahəsində ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilir, onlar arasında idmanın kütləviliyinə nail olunmasına çalışılır. İdman sahəsinə göstərilən davamlı dövlət qayğısı nəticəsində Naxçıvanda paralimpiyaçıların sıraları daha da genişlənib və bu sahədə müxtəlif idman tədbirlərinin keçirilməsinə əlverişli şərait yaradılıb. Hesabat dövrü ərzində federasiya tərəfindən bir sıra tədbirlər keçirilib.

Vüqar Məmmədov qeyd edib ki, muxtar respublikada boccia məşqçilərinin bacarıqlarını daha da artırmaq məqsədilə federasiyanın dəvəti ilə Azərbaycan Milli Paralimpiya Komitəsinin boccia üzrə milli komandasının baş məşqçisi, Azərbaycan Boccia İdman Federasiyasının katibi İlham Məhərrəmovun rəhbərliyi ilə məşqçilər heyəti muxtar respublikaya dəvət edilib, təlim-məşqlər olub. Hazırda federasiyanın Naxçıvan şəhərində qolbol bölməsi, Naxçıvan şəhərində və Şərur rayonunda üzgüçülük üzrə bölmələri, Naxçıvan şəhəri, Şərur və Sədərək rayonlarında stolüstü tennis, Naxçıvan şəhərində və bütün rayonlarda boccia bölmələri fəaliyyət göstərir.

Vurğulanıb ki, adıçəkilən müşavirədə federasiyalara bir sıra tapşırıqlar verilib. Tapşırıqların icrası diqqət mərkəzində saxlanılacaq və müvafiq tədbirlər həyata keçiriləcəkdir.

Naxçıvan Muxtar Respublikasının gənclər və idman nazirinin müavini Məcid Seyidov çıxış edərək bildirib ki, muxtar respublikamızda idmanın inkişafı sahəsində mühüm işlər görülür, gənclərin fiziki və mənəvi hazırlığı, onların asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır. Adıçəkilən müşavirədə verilən tapşırıqlara əsasən Paralimpiya Federasiyasında idmanın bu növünün inkişaf etdirilməsi, gənclərin idmana cəlbi, idman yarışlarının kütləviliyinin artırılması, federasiya daxilində istedadlı gənclərin məlumat bankının yaradılması və hər yarışdan sonra yenilənməsi təmin edilməlidir.

"2006-cı ildə yaradılan Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası sağlamlıq imkanları məhdud yeniyetmə və gənclərin idman bölmələrinə cəlbi istiqamətində məqsədyönlü iş aparıb, komandalar formalaşdırıb", – deyən Məcid Seyidov nəzərə çatdırıb ki, 2018-ci il ərzində şəhər və rayonları əhatə etməklə 361 idmançı 14 fərqli qrupda idmanın bu növü üzrə keçirilən hazırlıqlarda, təlim-məşq proseslərində iştirak edib, həmçinin həmyerlimiz, milli komandanın üzvü, respublika çempionatının mükafatçısı Qafqaz Hüseynov federasiyanın boccia bölmələrində təlim-məşqlər aparıb.

Sonra Naxçıvan şəhər tennis bölməsinin məşqçi-müəllimi Novruz Novruzovun çıxışı dinlənilib.

Sonda federasiyanın sədr müavini Vüqar Məmmədov qarşıya qoyulan vəzifələri, göstəriş və tapşırıqları rəhbər tutaraq muxtar respublika idmanına öz töhfələrini verəcəklərinə əminliyini bildirib, qazanılan uğurlarda əməyi olan hər kəsə təşəkkür edib.

**✍ Ceyhun MƏMMƏDOV**

* * *



Ordubad rayonunda keçirilən müşavirədə rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov çıxış edərək bildirib ki, rayonda ayrı-ayrı idman növləri üzrə 10 federasiya bölməsi fəaliyyət göstərir.

Mövcud infrastruktur və göstərilən dövlət qayğısı nəticəsində 2018-ci ildə gənc idmançılarımız idmanın müxtəlif növləri üzrə keçirilən yarış və çempionatlarda fəal iştirak edib, həm şəxsi birincilik, həm də komanda hesabı ilə müxtəlif növlər üzrə qalib olublar.

Diqqətə çatdırılıb ki, ötən il kütləvi bədən tərbiyəsi və idman sahəsində keçirilmiş 40 tədbirdə 1683 nəfərdən çox yeniyetmə və gənc iştirak edib. Hazırda bədən tərbiyəsi və idmanla məşğul olanların ümumi sayı 6688 nəfərdir ki, onların 2451 nəfərini qızlar təşkil edir.

Rayon idmançılarından Naxçıvan Muxtar Respublika yarışlarında fərdi qaydada 16 idmançı birinci, 4 komanda ikinci yerə layiq görülüblər. Ölkə üzrə yarışlarda idmançılarımızdan fərdi qaydada 2 nəfər birinci, 2 nəfər isə ikinci yerə layiq görülüb. İdmançılarımızdan muxtar respublikanın yığma komandalarının tərkibində beynəlxalq səviyyəli yarışlarda 1 nəfər boks üzrə birinci yerə, 1 nəfər şahmat festivalında "C" qrupunda 10 yaşlı qızlar arasında ikinci yerə çıxıb.

Ötən dövr ərzində sağlamlıq imkanları məhdud olan uşaqlar da idmana cəlb olunub, həmin kateqoriyadan olan 18 yaşınadək 12, 18 yaşından yuxarı 2 idmançımız muxtar respublika səviyyəli idman yarışlarında iştirak edib.

Qeyd olunub ki, Ordubad şəhər 1 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi Hüseyn Seyid son 4 ildə ardıcıl olaraq şahmat üzrə Azərbaycan çempionatının finalına vəsiqə qazanıb. 2018-ci ildə Naxçıvanda keçirilən şahmat çempionatında I yeri tutub və 25 yanvar-4 fevral tarixlərində rayonun 5 nəfər istedadlı şahmatçısı Mingəçevir şəhərində şahmat üzrə çempionatının seçmə turnirində iştirak edib, Hüseyn Seyid 11 yaşlılar arasında II yerə çıxıb.

Naxçıvan Muxtar Respublikası Yüngül Atletika yığma idman komandasının üzvü Əmrah Nağıyev 2018-ci ildə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası birinciliklərində qalib gəlib. Həmin komandanın üzvü Xatun Orucova qızlar arasında Naxçıvan Muxtar Respublikasının qalibi olub, Azərbaycan Respublikası birinciliyində birinci yeri tutub.

Gülnur Abdullayeva karate-do idman növü üzrə dəfələrlə rayon birinciliklərində, Naxçıvan Muxtar Respublika birincilik, turnir və yoldaşlıq görüşlərində qələbə qazanıb.

Qeyd olunub ki, 2018-ci ildə Kənan İbrahimov İran İslam Respublikasında keçirilən Boks üzrə Beynəlxalq turnirdə I yerin qalibi olub.

"Vətəni müdafiəyə hazıram", "Sərhəd" və "Şahin" hərbi idman oyunu üzrə muxtar respublika mərhələsində rayonun qalib komandalarının iştirakı təmin edilib.

İcra başçısı Elşad Məmmədov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisində keçirilən müşavirədə qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi məqsədilə ümumtəhsil məktəblərində fiziki tərbiyə dərslərinin tədrisinə nəzarət artırılmalı, rayon Uşaq-Gənclər İdman və Şahmat məktəblərinin fəaliyyəti gücləndirilməlidir. Mövcud idman infrastrukturundan səmərəli istifadə edilməli, idman obyekt və qurğularının qorunması, sağlamlıq imkanları məhdud olanların idmana cəlbi diqqət mərkəzində saxlanılmalıdır. Rayon Gənclər və İdman İdarəsi Təhsil Şöbəsi ilə birlikdə idmanın kütləviliyini təmin etmək üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməlidirlər. Digər aid təşkilatlar, həmçinin federasiya bölmələrinin rəhbərləri gənc və perspektivli idmançıların yetişdirilməsi üçün səylərini artırmalıdırlar. Ona nail olmaq lazımdır ki, idmançılarımız daha nüfuzlu yarışlarda böyük nəticələr əldə etsinlər.

"Ordubad rayonunda 2019-cu il ərzində gənclər və idman sahəsində görüləcək işlərin planı"na daxil edilmiş tədbirlər vaxtında həyata keçirilməli və bütün öhdəliklər yerinə yetirilməlidir.

Müşavirədə Ordubad Rayon Gənclər və İdman İdarəsinin rəisi Hacı Sadıqov, Şahmat Məktəbinin direktoru İsrafil Məmmədov və Paralimpiya Federasiyasının Ordubad rayon bölməsinin sədri Niyazi Quliyev çıxış ediblər.

Sonda ötən il ərzində fərqlənən idmançılar mükafatlandırılıblar.

**Abbas SEYİD**

## Kənd təsərrüfatı məhsulları hərbi hissə və sərhəd zastavasına hədiyyə edilib

*Xalq-ordu birliyini özündə əks etdirən tədbirlərin davamı kimi sahibkarlar tərəfindən, ümumilikdə, 5 min 500 kiloqram kənd təsərrüfatı məhsulu əsgərlərə təqdim edilib.*



Şərur rayonunun Aralıq kənd sakini Əmir Əsədov, Məmmədsabir kənd sakini Əli Rüstəmov və "N" hərbi hissənin giziri Sərvan Məmmədov tərəfindən 3 ton sarımsaq, 1700 kiloqram turp və 800 kiloqram kartof hərbi hissə və sərhəd zastavasına hədiyyə edilib.

Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zastavasında şəxsi heyətlə görüş zamanı dövlət qayğısından və xalq-ordu birliyindən danışılıb.

Sonda gətirilmiş sovqat hərbi hissə və zastavanın anbarlarına təhvil verilib.

**Nəriman NƏCƏFOV**

## Elmi-praktik konfrans

*Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanasında yoluxucu və dəri-zöhrəvi xəstəliklərinin müasir müayinə və müalicəsinə həsr olunmuş elmi-praktik konfrans keçirilib.*

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin baş həkimi Xeyrənsə Babayeva məruzə edərək bildirib ki, son illər yoluxucu xəstəliklərlə mübarizə və profilaktika sahəsində aparılan tədbirlər nəticəsində vaxtaşırı olaraq qonşu ölkələrdə və ümumiyyətlə, regionda müşahidə edilən epidemioloji gərginliyə baxmayaraq, muxtar respublikamızda epidemioloji sabitlik təmin edilib.

Qeyd olunub ki, bir sıra yoluxucu viruslar kəskin xroniki xəstəliklər törədərək insanların sağlamlığında ciddi pozuntular yaradır. Həmin viruslara yoluxmuş insanlar bəzən bundan xəbərsiz olur, diaqnozu təyin edilmir və müalicəsi aparılmır. Yalnız virusların müxtəlif formaları, onların qarşısının alınması, müayinə və protokol müalicə yolları, profilaktikası barədə maarifləndirməni genişləndirməklə insan həyatını xilas etmək olar.

Konfransda mərkəzin həkimlərindən Fatma Məmmədli, Əsmər Həsənova, Natiq Əliyev, Aytən Səfərli, Tofiq Hacıyev çıxış edərək yoluxucu infeksiyaların müayinəsinə muxtar respublikada 2006-cı ildən başlanıldığını bildiriblər. Vurğulanıb ki, hazırda donorlar, obliqat qruplar, bütün əməliyyat olunanlar və hamilələr, nikaha daxil olanlar və könüllü müraciət edənlər də müayinələrdən keçirilir. Əməliyyat, doğuş aparılan əksər dövlət və özəl tibb müəssisələrində hepatit B və C viruslarının, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələri icra edilir. Ötən il ərzində mərkəzdə stasionar müalicə alan bütün xəstələr yaxşılaşma ilə evə buraxılıb.

Çıxışlar videosüjet, diaqram, cədvəl və slaydlarla müşayiət olunub, müzakirələr aparılıb, tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## "Qış məktəbi"nin ilk mərhələsinə start verilib

*Ağbulaq İstirahət Mərkəzində muxtar respublikamızın fəal gənclərinin iştirakı ilə növbəti "Qış məktəbi"nə start verilib.*



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin, Gənclər Fondunun, Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının İcra Katibliyinin, həmçinin təşkilatın Heydər Əliyev adına Gənclər Birliyinin və Həmkarlar İttifaqları Şurasının birgə təşkil etdiyi məktəbdə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri iştirak edir.

"Qış məktəbi"nin ilk günündə gənclər Ağbulaq İstirahət Mərkəzi ilə yaxından tanış olub, stolüstü idman oyunlarında iştirak edib, süni örtüklü mini-futbol meydançasında futbol oynayıblar. Günün ikinci yarısında "Vətəni tanı" intellektual oyununun ilk mərhələsi keçirilib. Günün sonunda gənclər vətənpərvərlik mövzusunda "Ayla" bədii filminə baxıblar.

Qeyd edək ki, "Qış məktəbi" 8 fevral tarixədək davam edəcək.

## Güləşçilərimizdən növbəti uğur




Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının yetirmələri cari ildə daha bir uğura imza atıblar.

Belə ki, 31 yanvar-1 fevral tarixlərində İran İslam Respublikasının Təbriz şəhərində yeniyetmələr arasında cüdo üzrə turnir keçirilib. Bu turnirdə muxtar respublikanı 50 kiloqram çəki dərəcəsində Abbas Məmmədov təmsil edib. İdmançımız bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb. 1-3 fevral tarixlərində isə Bakı Əl Oyunları Sarayında gənclər arasında sambo üzrə ölkə birinciliyi keçirilib. İdmançımız Abdulla İsmayılov 100 kiloqram çəki dərəcəsində fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb.

Hər iki idmançımız təşkilatçılar tərəfindən diplom və medalla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Şərifova Kəmalə Şəmsəddin qızının adına olan evin 6698 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

* * *

Məmmədov Sədi Vasif oğluna məxsus olan AO-0121526 nömrəli hərbi bilet itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 103